# Elm və təhsilin inkişafı insan kapitalının formalaşmasına xidmət edir

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Ölkəmizdə bu istiqamətdə atılan addımlar bu fikri bir daha təsdiqləyir və onu deməyə əsas verir ki, Azərbaycan da öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Zəngin təbii sərvətləri ilə daim dünyanın diqqət mərkəzində olan ölkəmiz bu ehtiyatlardan səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.

Təhsili cəmiyyətin inkişafedici qüvvəsinə çevirən amillərdən biri də təbii ki, orta və ali təhsil müəssisələri olmaqla, həm də burada çalışan müəllimlərdir. Təhsillə elmin vəhdətliyini qurmaq missiyası isə ali təhsil müəssisələrinin üzərinə düşür. Bu da bir həqiqətdir ki, hər bir təhsil ocağı özəlliyi, təhsilin keyfiyyəti, tətbiq etdiyi yenilikləri, islahatları ilə diqqəti çəkir. Lakin hər bir təhsil ocağının yetişdirdiyi mütəxəssislər əldə etdikləri bilik, bacarıq baxımından fərqlənsələr də, onları bir araya gətirən yeganə məqsəd malik olduqları potensial imkanlardan ölkənin gələcəyi naminə maksimum dərəcədə bəhrələnməkdir.

Kadr hazırlığı Azərbaycanda bütün dövrlər üçün aktual bir məsələ olub. Burada bir faktı xatırlatmaq yerinə düşər ki, hələ ötən əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə minlərlə Azərbaycan gənci respublikadan kənarda yerləşən nüfuzlu ali məktəblərdə müxtəlif ixtisaslar üzrə təhsil alaraq ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə öz layiqli töhfələrini vermişlər. Həmin illər elm və təhsilimiz üçün çox əhəmiyyətli bir dövr olmuşdur. Böyük öndərin Azərbaycana birinci dəfə rəhbərliyi dövründə respublikamız üçün mütəxisslər hazırlayan elm-təhsil mərkəzlərinin işini gücləndirmək məqsədilə ciddi işlər həyata keçirilmişdir. Məsələn, 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" xüsusi qərarlar qəbul edilmişdir. Bu dövrdə respublikada orta ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-yə çatdırılmışdır. Bu illərdə Azərbaycanın kadr potensialının istedadlı gənclər hesabına yenilənməsi üçün əvvəllər görünməmiş səviyyədə işlər görülürdü. Müasirləşməkdə olan respublikanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən, ən zəruri ixtisaslara tələbatın ödənilməsindən ötrü gənclər SSRİ-nin mötəbər ali məktəblərinə göndərilirdi. Təkcə Sovet İttifaqı respublikalarının 170 ali məktəbinə Azərbaycandan 3500 gənc göndərilmişdi. 1980-ci illərdə respublikada ali məktəblərin sayı 12-dən 17-yə, tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdı. Burada o dövr üçün önəmli olan bir faktı da diqqətə çatdırmaq yerinə düşər. Böyük öndərin birinci dəfə hakimiyyətə gəlişinə qədər ölkənin ən nüfuzlu ali məktəblərində — hüquq, şərqşünaslıq, jurnalistika fakültələrinə o dövrdə ancaq prokurorluq, məhkəmə sistemində çalışanların və raykom katiblərinin, icraiyyə komitə sədrlərinin övladları qəbul olunurdular. 1970-ci ildən bu tendensiyaya son qoyuldu. Öz timsalımda da bunu gördüm. Bir kolxozçu ailəsinin övladı kimi 1971-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil oldum, 1976-cı ildə oranı müvəffəqiyyətlə bitirdim. Artıq 40 ildən çoxdur ki, öz ixtisasım üzrə işləyirəm.

Böyük öndərin xüsusi diqqət yetirdiyi sahələrdən biri də milli hərbi kadrların hazırlanması idi. İndiki Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması bu istiqamətdə atılan addımların başlanğıcı oldu. Hər il bu məktəbin yüzlərlə məzunu SSRİ-nin ali hərbi təhsil müəssisələrinə daxil olurdu. Heydər Əliyev müntəzəm olaraq ittifaqın ali məktəblərinə göndərilən gənclərlə görüşərək dəyərli məsləhətlərini verir və xüsusi vurğulayırdı ki, onlar yüksək səviyyəli təhsil almaqla yanaşı, həm də xalqımızı, Azərbaycan gəncliyini təmsil etməli, milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi təbliğ etməli, respublikanın şərəfini uca tutmalıdırlar. Azərbaycanın sovet dönəmində inkişafının ən bariz nümunələrindən biri də odur ki, ötən əsrin 70-80-ci illərində yaranmış iqtisadi, elmi-texniki və ixtisaslı kadr potensialı sonralar respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsinə zəmin yaratmışdır. Belə ki, həmin illərdə ittifaqın ali təhsil ocaqlarında təhsil almış insanların bu gün də ölkə həyatının müxtəlif sahələrində çalışmaları deyilənlərin əyani sübutudur.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini ikinci dəfə bərpa etmiş müstəqil respublikamız 1993-cü ilin iyununa qədərki müddətdə çoxsaylı dövlət çevrilişləri, böhran, xaos, anarxiya ilə qarşılaşmışdı. Xalqın israrlı çağırışı ilə 1993-cü il iyunun 15-də ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı müstəqil respublikamızı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas etdi. Bununla da Heydər Əliyev Azərbaycanda dövlətçilik tarixinin yeni bir mərhələsinin, müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu.

Azərbaycan müstəqilliyini ikinci dəfə bərpa etdikdən sonra elm və təhsil sahəsində bir sıra mütərəqqi addımlar atıldı. Bu sırada 1992-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaradılmasını, 1992-1993-cü tədris ilində TQDK tərəfindən ali məktəblərə ilk tələbə qəbulunun keçirilməsini göstərmək olar. İlk vaxtlar bu istiqamətdə müəyyən çətinliklər olsa da böyük öndərin diqqət və qayğısı sayəsində elm və təhsil sahəsində mütərəqqi addımlar atıldı. Məsələn, 1993-1994-cü tədris ilində ali təhsildə 4 illik bakalavr və 2 illik magistratura sisteminə keçildi. 1997-ci ildə bakalavriatın ilk buraxılışı olmuş, eyni zamanda həmin il ilk dəfə olaraq magistr hazırlığına başlanmışdır. 1998-ci ildə ölkədə dövlət qeydiyyatından keçmiş 17 özəl ali məktəb fəaliyyət göstərirdi. 2001-ci ildə ilk özəl ümumtəhsil məktəbi - Müasir Təhsil Kompleksi fəaliyyətə başladı və bu sahədə proses dönməz xarakter aldı.

Bütün bunlarla yanaşı həmin dövrdə dövlətimizin müasir tələblərə cavab verən təhsil sisteminin yaradılması üçün islahatlara ehtiyac vardı. Bu ehtiyacı böyük uzaqgörənliklə duyan Heydər Əliyev 1998-ci ildə ölkəmizdə təhsil sistemində islahatlar aparılmasına dair xüsusi sərəncam imzaladı. Qısa zamanda "Azərbaycan Respublikasının təhsil sistemində İslahat Proqramı" hazırlandı. "Təhsil haqqında" Qanun qəbul edildi.

Təhsili millətin gələcəyi adlandıran böyük öndər müəllimlərin sosial müdafiəsi ilə bağlı 1993-2003-cü illərdə təkcə əməkhaqlarının artırılması üçün 9 fərman imzalamışdır. Hər il yüksək bal toplayaraq ölkənin ali məktəblərinə daxil olan gənclər üçün xüsusi Prezident təqaüdünün, eləcə də istedadlı gənclər üçün fəxri təqaüdlərin təsis edilməsi, ümumtəhsil məktəblərinin şagirdlərinə dərsliklərin pulsuz verilməsi, latın qrafikalı əlifbanın tətbiqi böyük öndərin bu sahəyə diqqət və qayğısının təzahürüdür.

Müasir Azərbaycan dövlətinin banisi, ölkəmizi dünyanın ən inkişaf etmiş sivil dövlətləri səviyyəsinə çatdıra bilən ümummilli lider Heydər Əliyevin ideyaları, təməlini qoyduğu strategiya möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən bu gün böyük qətiyyət və uğurla həyata keçirilir. Dövlət başçısının ölkəmizə rəhbərlik etdiyi son 15 il çağdaş təhsilimizin tarixində yüksək inkişaf, bütün istiqamətlərdə islahatların daha da dərinləşməsi, təhsilin elmi əsaslara söykənən Dövlət proqramları vasitəsilə idarə olunması dövrü kimi xarakterizə olunur. Bu dövrün əsas məqamlarından biri təhsilə ayrılan xərclərin ildən-ilə artmasıdır. Məsələn, təhsilə dövlət büdcəsindən ayrılan vəsait 2016-cı ildə 2003-cü illə müqayisədə 1,8 dəfə artmışdır. Son illər Azərbaycanda 3 mindən çox yeni məktəbin tikilməsi, əsaslı təmiri və müasir avadanlıqlarla təchizatı, məktəblərdə kompüter siniflərinin yaradılması təhsil tariximizdə ən əlamətdar hadisələrdəndir. Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində 2004-cü ildə təsis edilmiş, UNESCO-nun və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun müstəsna xidmətləri qeyd edilməlidir. Belə ki, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Fond tərəfindən ölkə üzrə 100 mindən çox şagirdin təhsil aldığı 412 məktəb binası inşa edilmiş və yenidən qurulmuşdur.

Dövlət başçısının 16 aprel 2007-ci il tarixli sərəncamı ilə təsdiqlənən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" da ölkə gənclərinin intellektual səviyyəsinin artırılmasına, elmi biliklərə dərindən yiyələnmələrinə, təhsil aldıqları dünyanın qabaqcıl ölkələrinin təcrübələrini öyrənib respublikamızda təbliğinə, eyni zamanda yeni texnologiyaların mənimsənilməsinə xidmət edir. Dövlət başçısının çıxışlarında əsas yer tutan məsələlərdən biri də budur ki, neft-qaz xalqımıza Tanrıdan verilən böyük nemətdir. Biz bundan ölkəmizin inkişafı, xalqımızın mənafeyi üçün uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək, amma bilik, zəka isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcək. Ən yaxşı inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft-qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır. Məhz qarşılıqlı əməkdaşlıq, təcrübə mübadiləsi nəticəsində elmin sirlərinə daha dərindən yiyələnmək, elmi araşdırmaların miqyasını genişləndirmək mümkündür. Dövlətimizin təhsilin, elmin inkişafına diqqət və qayğısı ümumi orta və ali təhsil ocaqlarının maddi-texniki bazasının daha da möhkəmləndirilməsində, təkmil islahatların həyata keçirilməsində daha aydın görünür.

Çox düzgün deyimdir ki, təhsil xəzinədir, elm onun açarı. Dövlətimiz hər zaman elm və təhsilin birliyinin möhkəmləndirilməsi üçün bütün zəruri tədbirləri həyata keçirir. Təhsilin inkişafına xidmət edən çoxsaylı Dövlət proqramlarının, eyni zamanda Prezident İlham Əliyev tərəfindən 24 oktyabr 2013-cü il tarixli sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunması və uğurlu icrası bu istiqamətlərdə mühüm nailiyyətlərə yol açıb. Bu reallıq da inkaredilməzdir ki, Azərbaycan hər zaman yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara, eyni zamanda elmi, intellektual potensialına görə dünyanın diqqətini özünə çəkib. Ölkə rəhbərinin "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" deməsi Prezident İlham Əliyevin bu sahəni dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə bağlıdır. Bu mənada "Təhsil əsri" elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında elm və təhsilin rolu danılmazdır.

**Ramiz YUSİFOV,**
**"Respublika".**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

Respublika.-2018.- 11 iyul.- S. 7.